

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 oktyabr 2024-cü il №76 (2887) https://mod.gov.az Qiymәti 30 qәpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 7-də Rusiya Federasiyasına səfər edib.***

Moskva şəhərinin Vnukovo-2 Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentini Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Oktyabrın 7-də Moskvada MDB dövlət və hökumət başçılarının qeyri-rəsmi naharı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Oktyabrın 8-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.

Dövlətimizin başçısını salamlayan Prezident **Vladimir Putin** deyib:

- Hörmətli İlham Heydər oğlu. Hörmətli dostlar, həmkarlar.

Sizin hamınızı Moskvada salamlamağa çox şadıq. Mənim Bakıya səfərim zamanı razılaşdığımız kimi bu gün görüş keçiririk.

Biz indi Prezidentlə, necə deyərlər, üzbəüz danışırdıq, dünən axşam da qeyri-rəsmi təmasımız olub, münasibətlərimizin hazırkı statusu ilə bağlı məsələlərə bu və ya digər dərəcədə toxunduq.

Dərhal qeyd etmək istərdim ki, münasibətlər müsbət inkişaf edir, biz bunu hələ Azərbaycana səfər zamanı bildirmişdik: əmtəə dövriyyəsi 4 dəfədən çox - 4,3 milyard dollardır. Bizim Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarımız dörd milyard dollardan çoxdur. Energetika sahəsində də, infrastrukturun inkişafı üzrə də çoxlu yaxşı, maraqlı layihələr var. Onların hamısı perspektivlidir, realdır, həm ikitərəfli, həm də çoxtərəfli layihələr aktualdır.

Çox şadıq ki, MDB ölkələri başçılarının görüşü platformasında bizim bu gün cari işlər barədə informasiya mübadiləsi aparmaq, ola bilər ki, irəliyə doğru bu hərəkətdə, - bu isə açıq-aşkardır, - hər hansı düzəlişlər etmək imkanımız var.

Sizi görməyimizə çox şadıq. Xoş gəlmisiniz.

Prezident **İlham Əliyev** deyib:

- Hörmətli Vladimir Vladimiroviç, bu gün görüşmək imkanına görə sağ olun, həmçinin dünənki nahar yeməyinə görə təşəkkür edirəm. Yeri gəlmişkən, fürsətdən istifadə edərək, Sizi doğum gününüz münasibətilə təbrik etmək istərdim.

**(Ardı 2-ci səhifədə)**

## Prezident İlham Əliyev Hadrutun azad edilməsinin dördüncü ili münasibətilə paylaşım edib

Prezident İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunmasının dördüncü ili münasibətilə sosial şəbəkə hesablarında video paylaşıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda "Zəfər tariximiz - Hadrutun Ermənistan işğalından azad edilməsindən dörd il ötür" sözləri yer alıb.

## Prezident İlham Əliyev Moskvada “Rossiya-1” televiziya kanalına müsahibə verib




*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Moskvada "Rossiya-1" televiziya kanalına müsahibə verib.*

AZƏRTAC müsahibəni təqdim edir.

**Müxbir**: Siz bu günlərdə Amerikanın Azərbaycana qarşı sanksiyaları ilə bağlı çox açıq danışdınız. Məlum olduğu kimi, indi Rusiya minlərlə sanksiyanın təzyiqi altında yaşayır. Sizcə, sanksiyalar siyasətinin prinsipcə hər hansı perspektivləri varmı?

Prezident **İlham Əliyev**: Onun, ümumiyyətlə, mövcud olmağa haqqı yoxdur, xüsusilə də bu sanksiyalar qeyri-qanuni olduqda və tamamilə əsassız və selektiv şəkildə tətbiq edildikdə. Ona görə də biz istənilən sanksiyalara qəti şəkildə qarşıyıq və hesab edirəm ki, beynəlxalq ictimaiyyət öz mövqeyini vahid qaydada bildirməlidir. Biz milli səviyyədə özümüzə qarşı, həm də təkcə bizə deyil, tətbiq olunan bütün sanksiyalara münasibətdə bu mövqeyi ifadə edirik.

Bizə sanksiyalar 1992-ci ildə, Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu bir vaxtda ölkəmizin "Ermənistanı blokadada saxlaması" barədə qondarma ittihamla tətbiq edilmişdi. Bu sanksiyalar 2001-ci ildə, ABŞ-ın öz yüklərini hava, quru və dəniz yolu ilə Azərbaycan ərazisindən Əfqanıstana tranzit daşımalı olduğu vaxt aradan qaldırılmışdı. Partiya mənsubiyyətindən asılı olmayaraq, Birləşmiş Ştatların Prezidenti ABŞ Əfqanıstandan qaçana qədər hər il bu sanksiyaları öz qərarı ilə ləğv edirdi. Bundan sonra bizə qarşı həmin sanksiyalar yenidən tətbiq olundu. Mən onları nankorluqda ittiham edəndə, hesab edirəm ki, bu, həmin kontekstdə istifadə olunacaq ən sərt söz deyil.



3-cü səhifədə

Zabit qüruru, vətəndaşlıq qüruru



5-ci səhifədə

Azərbaycan və Özbəkistan arasında kompüter dəstəkli birgə komanda-qərargah təlimi keçirildi



6-cı səhifədə

Müəllimlik ucalığa aparan yoldu

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri



**(Əvvəli 1-ci səhifədə)**

Sizin dövlət səfərinizdən sonra ikitərəfli münasibətlərimizin dinamikası kifayət qədər nəzərə çarpır. Avqust ayında Bakıda əldə olunmuş qərarların yerinə yetirilməsi çərçivəsində artıq müxtəlif strukturların nümayəndələri səviyyəsində, hökumət üzvləri arasında çoxlu təmaslar olub.

Siz qeyd etdiyiniz kimi, bu gün həmin məsələləri nəzərdən keçirmək üçün yaxşı imkan var, çünki gündəliyimiz kifayət qədər genişdir və həmin layihələr, xüsusən avqust ayında Bakıda nəzərdə tutduqlarımız, əlbəttə ki, bizim daimi diqqət və nəzarətimizi tələb edir. Beləliklə, bu gün gündəliyə nəzər salmaq və iki ölkə arasında əldə olunmuş həmin razılaşmaların yerinə yetirilməsi üzrə konkret addımları müəyyənləşdirmək üçün yaxşı fürsətdir.

Görüşə görə bir daha sağ olun.

Prezident **Vladimir Putin**: Hörmətli İlham Heydər oğlu, Sizi oktyabrın 23-24-də Kazanda BRICS xətti ilə BRICS plyus-autriç tədbirlərində gözləyirik. Əminəm ki, orada faydalı görüşlər keçiriləcək, bu təşkilatın iştirakçı ölkələrinin bütün liderləri ilə işləmək mümkün olacaq. Əlbəttə ki, biz BRICS-lə əməkdaşlıq etməyə çalışan çox sayda ölkəni dəvət edirik. Artıq 25 həmkarımız öz iştirakını təsdiq edib. Ona görə də belə platformalarda işləmək hər zaman rahatdır. Onu nəzərdə tuturam ki, bu tədbirin iştirakçılarını maraqlandıran məsələlərin bütöv dairəsi üzrə danışıqlar aparmaq mümkündür. Zənnimcə, bu, həm faydalı, həm də maraqlı olacaq. Sizi Kazanda gözləyirik.

Prezident **İlham Əliyev**: Vladimir Vladimiroviç, sağ olun. Azərbaycan elə Sergey Viktoroviçin də dediyi, öz iştirakını təsdiq etmiş həmin 25 ölkə arasındadır. Sizin dəvətinizi məmnuniyyətlə qəbul edirəm və yeni görüşümüzü səbirsizliklə gözləyirəm. Sağ olun.

* * *

Oktyabrın 8-də Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

İclasda iştirak edən dövlət və hökumət başçıları birgə foto çəkdiriblər.

Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib.

Çıxış üçün sözü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verən Rusiya Prezidenti Vladimir Putin deyib: Buyurun, İlham Heydər oğlu, söz Sizindir.



Dövlətimizin başçısı iclasda çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli Vladimir Vladimiroviç.

Hörmətli həmkarlar.

Vladimir Vladimiroviç, əvvəlcə Sizi keçmiş doğum gününüz münasibətilə bir daha təbrik etmək və Sizə möhkəm cansağlığı, əmin-amanlıq, Rusiyanın dost xalqına isə yeni uğurlar və nailiyyətlər arzulamaq istərdim. Rusiya Federasiyası Prezidentinin Azərbaycana bu yaxınlardakı dövlət səfəri Rusiya-Azərbaycan münasibətlərinin müttəfiqlik xarakterini bir daha təsdiq etdi. Əminəm ki, əldə olunmuş razılaşmaların həyata keçirilməsi gələcəkdə münasibətlərimizin ardıcıl inkişafı işinə xidmət edəcək.

Fürsətdən istifadə edərək, Emoməli Şərifoviç Rəhmona Tacikistan Respublikasının növbəti il MDB-də sədrliyində uğurlar arzulamaq və keçmiş doğum günü münasibətilə bir daha təbrik etmək istərdim.

MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilib. Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılmışdı. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb.

Növbəti il Azərbaycanda III MDB Oyunları keçiriləcək. Gəncə şəhəri idman paytaxtına çevriləcək. Yarışlar, həmçinin Azərbaycanın 10-dan çox şəhərində keçiriləcək.

Fürsətdən istifadə edərək, Belarusu II MDB Oyunlarını uğurla keçirməsi münasibətilə təbrik etmək istərdim. Belaruslu dostlarımızın və qardaşlarımızın təcrübəsi bu mühüm idman tədbirinə hazırlıqda və onun keçirilməsində bizim üçün çox faydalı olacaq.



Bir aydan sonra Bakı ən böyük beynəlxalq tədbirə - COP29 iqlim konfransına ev sahibliyi edəcək. Biz 200-ə yaxın ölkənin bu konfransın Bakıda keçirilməsi haqqında yekdil qərarını bütün dünya ictimaiyyətinin Azərbaycana hörmətinin əlaməti kimi qiymətləndiririk.

Hörmətli həmkarlar, bu gün MDB dövlət başçılarının İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı müraciəti qəbul ediləcək. Azərbaycan ümumi qələbəmizə sanballı töhfə verib. Həmin dövrdə 3 milyon 400 min əhalisi olan Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib. Bütün bunlar həmin dövrdə Azərbaycanda istehsal olunub, göstərilən məhsulların o vaxtlar SSRİ-də ümumi istehsalının faizidir. Azərbaycanda 130 növdən çox silah, sursat və texnika, o cümlədən məşhur "Katyuşalar", "Yak-3" qırıcıları istehsal edilirdi.



Bakıda 41 hərbi hospital fəaliyyət göstərirdi, 440 min yaralı müalicə alırdı. 1942-ci ilin martında, həmçinin Taqanroq adı ilə tanınan 416-cı Azərbaycan atıcı diviziyasının döyüşçüləri və içdilər və Şimali Qafqazdan başlayan döyüş yolunu Berlində başa çatdırdılar. 416-cı Azərbaycan atıcı diviziyası 1945-ci il aprelin 21-də birincilər sırasında Berlinin girəcəyinə daxil oldu. Mayın 2-də diviziyanın döyüşçüləri polkovnik Rəşid Məcidovun komandanlığı altında Qələbə Bayrağını Brandenburq darvazası üzərinə sancdılar.

Bizim 9 May ümumi Qələbəmiz MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığının mühüm amilidir. Azərbaycan bu əməkdaşlığa böyük əhəmiyyət verir və bundan sonra da qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

**Vladimir Putin**: İlham Heydər oğlu, çox sağ olun.

* * *

Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirib.

Rusiya Prezidenti Vladimir Putin MDB ölkələri arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı layihələrin həyata keçirildiyini, əlaqələrin uğurla inkişaf etdiyini bildirib.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko iclasda çıxış edib və 1941-1945-ci illər müharibəsində Qələbənin 80 illiyi ilə bağlı MDB xalqlarına və dünya ictimaiyyətinə birgə müraciəti oxuyub.

Sonra Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko çıxış edərək MDB ölkələrinin parlamentlərarası əlaqələrindən, görüləcək işlərdən, nəzərdə tutulan layihələrdən danışıb.

Daha sonra sənədlər imzalanıb.

Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatıb.

* * *

Oktyabrın 8-də Moskvada MDB dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan və Özbəkistan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib





Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Özbəkistan Respublikasının Hava Hücumundan Müdafiə və Hərbi Hava Qüvvələrinin komandanı general-mayor Axmad Burxanovu qəbul edib.

Müdafiə Nazirliyi xəbər verir ki, qonağı salamlayan müdafiə naziri onu Azərbaycanda görməkdən məmnun olduğunu bildirib, ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib.

General-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan ilə Özbəkistan arasında hərbi sahədə əməkdaşlığın daha da inkişaf etdirildiyini vurğulayıb, bu istiqamətdə görülən işlərdən danışıb.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən general-mayor A.Burxanov səmimi qəbula görə öz minnətdarlığını bildirib, general-polkovnik Zakir Həsənova Özbəkistan müdafiə nazirinin salamlarını çatdırıb.

Sonra Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində rəsmi qarşılanma mərasimi təşkil edilib. Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə özbəkistanlı həmkarı ilə fəxri qarovulun önündən keçib.

Komandanlar arasında keçirilən görüşdə Azərbaycan ilə Özbəkistanın digər istiqamətlərdə olduğu kimi hərbi aviasiya və hava hücumundan müdafiə sahəsində təcrübə mübadiləsinin inkişaf etdirilməsinin və qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Görüşdə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın yeni perspektivləri, eləcə də maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonda Özbəkistan nümayəndə heyətinə Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində görülən işlər barədə ətraflı məlumat verilib.







*Medallı igidlərimiz*

## Zabit qüruru, vətəndaşlıq qüruru



Artilleriyaçıların döyüş atışlı nümunəvi taktiki təlimi cari ilin hazırlıq planına uyğun olaraq yüksək peşəkarlıqla keçirildi. Mayor Elman Əsgərov şəxsi heyətin təlimlərdə nəzəri biliklərindən, taktiki təcrübələrindən səmərəli istifadə etdiklərini bildirərək qeyd etdi ki, təlimlər hərbi qulluqçuların bilik və bacarıqlarını artırır, döyüş qabiliyyətlərini təkminləşdirir.

Mayor Elman Əsgərov 1989-cu ildə Cəlilabad rayonunun Göytəpə qəsəbəsində anadan olub. Ağrı-acılı müharibə onların ailəsindən yan keçməyib. Keçmiş sovet ordusunda xidmət edən atası doğma Vətənin müdafiəçiləri sırasına ilk qoşulanlardan olub. Onda Elman azyaşlı idi.

Mayor Elman Əsgərovun atası Birinci Qarabağ müharibəsində Füzuli rayonunun Qırmızı Bazar qəsəbəsi uğrunda gedən döyüşlərdə şəhid olub.

Qəlbində həmişə düşmənə nifrət hissi olub. O da hərbçi olub Vətənə xidmət etməyi qərara alıb.

Azərbaycanın Milli Qəhrəmanı Vüqar Mürsəlovun adını daşıyan məktəbin əlaçı şagirdlərindən biri kimi vətənpərvərlik tədbirlərində həmişə ön sıralarda olub. Müxtəlif bilik yarışlarında, olimpiadalarda iştirak edib. Orta məktəbi yüksək qiymətlərlə bitirərək sənədlərini arzusunda olduğu Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təqdim edib. Qəbul olunub. Zabit peşəsinə yiyələnəcəyinə, atasının yolunu davam etdirəcəyinə söz verib.

Artilleriya ixtisası üzrə təhsil alan Elman Əsgərov çalışqanlığı, intizamı ilə seçilib, kurs birincilərindən olub. Ali Hərbi Məktəbi 2010-cu ildə bitirib. "Leytenant" hərbi rütbəsi ilə taqım komandiri vəzifəsinə təyin olunub, şəxsi heyətin döyüş, mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə xüsusi fikir verib. Xidmətini cəbhə bölgəsində davam etdirən Elmanı batareya komandiri vəzifəsinə təyin ediblər. Gənc zabit şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi üçün bilik və bacarığını əsirgəməyib.

İkinci Qarabağ müharibəsində mayor Elman Əsgərovun xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də iştirak edib. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarının işğalçılardan azad edilməsi uğrunda gedən döyüşlərdə Elman da şücaət göstərib.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə mayor Elman Əsgərov "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif olunub.

Ata yolunun davamçısı olan mayor Elman Əsgərov "N" hərbi hissəsində xidmətini qürurla davam etdirir...

"Ömrüm zabit qürurudu, vətəndaşlıq qürurudu", - mayor Elman Əsgərov belə deyir...

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

## Hadrut qələbəsi Zəfərə - Şuşaya aparan yolun əsas sütunudur




2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhə boyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Müharibənin 13-cü günü, oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsi işğaldan azad olundu. Ərgünəş dağı və onun ətəyində meşələrlə əhatə olunan Qozluçayın dərəsində yerləşən Hadrut 44 günlük Vətən müharibəsində əsas strateji məntəqələrdən biri hesab olunurdu. Dağlıq, çətin relyefli ərazidəki qəsəbənin azad olunması Azərbaycan Ordusunun əsas tapşırıqlarından biri idi. Qəsəbə uğrunda şiddətli döyüşlər 2020-ci il oktyabrın 7-də başlamışdı və ayın 9-da Azərbaycan Ordusu qəsəbə yaxınlığında yerləşən strateji əhəmiyyətli kəndləri və yüksəklikləri nəzarət altına almışdı. Bununla da həmin gün Xocavəndin Hadrut qəsəbəsi ilə yanaşı, Sor, Tərtərin Çaylı, Füzulinin Yuxarı Güzlək, Gorazıllı, Cəbrayılın Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı kəndləri də düşmən işğalından azad olundu.

Hadrutun azad edilməsi böyük ölçüdə müharibənin taleyini həll edən əməliyyatlardan biri oldu. Çünki Azərbaycan Ordusu məhz Hadrutun azad olunmasından sonra Şuşaya doğru istiqamət aldı. Ona görə də Şuşanın azad olunmasında Hadrut döyüşlərinin çox böyük rolu var. Çünki düşmən Azərbaycan hərbçilərini Şuşada başqa istiqamətdən gözləyirdi. Hadrut qələbəsi Zəfərə - Şuşaya aparan yolun əsas sütunu oldu.

44 günlük Zəfər dastanının ən şanlı səhifəsindən biri - Hadrutun azadlığa qovuşması xəbəri Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən xalqa çatdırıldı. Onun işğaldan azad olunması tarixi nailiyyət olmaqla yanaşı, həm də bölmələrimizin döyüş meydanındakı uğurlarını daha da artırdı, böyük Zəfərə gedən yolda strateji üstünlük qazandırdı.

2021-ci il martın 16-da Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağını qaldırdı və çıxış etdi.

2021-ci ilin iyununda işğaldan azad edilmiş Hadrut qəsəbəsində "Dəmir yumruq" abidəsi ucaldıldı. Belə bir abidənin məhz Hadrutda qoyulması isə xüsusi əhəmiyyət daşıyır.

**"Azərbaycan Ordusu"**

# Yeni hərbi nizamnamə layihələrinin hazırlanması məqsədilə yaradılan işçi qrupunun görüşü keçirilib




Müdafiə Nazirliyi xəbər verir ki, oktyabrın 5-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam, Qarnizon və Qarovul Xidmətləri, Daxili Xidmət nizamnamələrinin layihələrinin hazırlanması məqsədilə müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə əsasən yaradılan işçi qrupunun görüşü keçirilib.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərliyi ilə keçirilən görüşdə Silahlı Qüvvələrin aidiyyəti qurumlarının məsul vəzifəli şəxsləri qeyd olunan nizamnamələrin təkmilləşdirilməsi məqsədilə görüləcək işlər barədə müzakirə aparıblar.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrdə aparılan islahatlar, əldə edilən uğurlar və tətbiq edilən yeniliklər istifadədə olan hərbi nizamnamələrin müasir dövrün tələblərinə uyğunlaşdırılmasını və təkmilləşdirilməsini zəruri edir.



Bundan başqa, görüşdə nizamnamələrin təkmilləşdirilməsinə əsas verən digər səbəblər və məqsədlər, həmçinin işçi qrupunun fəaliyyət istiqamətində görüləcək işlər zamanı inkişaf etmiş ölkələrin ordularının təcrübələrindən yararlanmağa dair ətraflı fikir mübadiləsi aparılıb.

# Bakıda "Hərbi əməliyyatların idarə olunmasında beynəlxalq qaydalar üzrə yüksək səviyyəli seminar" keçirilir




*<u>Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) birgə təşkilatçılığı ilə Bakı şəhərində "Hərbi əməliyyatların idarə olunmasında beynəlxalq qaydalar üzrə yüksək səviyyəli seminar" (SWIRMO) keçirilir.</u>*

Müdafiə Nazirliyi xəbər verir ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin əhəmiyyətli tədbirlərindən biri hesab olunan seminarda 70-dən çox ölkədən yüksək rütbəli zabitlər iştirak edir.




Seminarda müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov açılış nitqi ilə çıxış edərək Azərbaycana qarşı törədilən hərbi cinayətlər nəticəsində mülki şəxslərin həlak olmasından danışıb. Nazir müavini çıxışında bildirib ki, Azərbaycan torpaqlarında 30 il ərzində müharibə cinayətləri törədilib, itkin düşən dörd min azərbaycanlı haqqında məlumat verilmir. Bölgədə basdırılan minaların təhdid olduğunu deyən nazir müavini qeyd edib ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli birgə bəyanatdan sonra 379 nəfər mina qurbanı olub.



Seminarda BQXK-nın yaranma tarixi və indiki fəaliyyəti, silahlılarla dialoqun aparılması, hərbi əməliyyatlar və hüquq, hüququn inteqrasiyası, beynəlxalq humanitar hüquq və hədəfəalma, Azərbaycan Ordusunda beynəlxalq humanitar hüququn tətbiqi və digər mövzularda çıxışlar təqdim ediləcək.

Seminarın keçirilməsində başlıca məqsəd hərbi əməliyyatların idarə olunmasına dair beynəlxalq qaydaların anlaşılmasını dərinləşdirmək, müasir döyüş meydanında beynəlxalq humanitar hüququn tətbiqi ilə bağlı məsələləri araşdırmaq, bu hüququ hərbi planlaşdırmaya, əməliyyatların aparılması və əxlaqi dəyərlərin gücləndirilməsinə inteqrasiya etmək, həmçinin eyni məkanda çalışan hərbçilərlə BQXK arasında qarşılıqlı anlaşmanı inkişaf etdirməkdir.

# "Beynəlxalq Müəllimlər Günü" münasibətilə tədbir keçirilib







"Beynəlxalq Müəllimlər Günü" münasibətilə xüsusi təyinatlı təhsil müəssisələrində bayram tədbiri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı, ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər bayramın yaranma tarixindən danışıb, "Beynəlxalq Müəllimlər Günü"nün Ulu Öndərin müvafiq Sərəncamına əsasən hər il ölkəmizdə bayram kimi qeyd olunduğu qeyd edilib. Azərbaycanda müəllimlərin hər zaman dövlət qayğısı ilə əhatə olunduğu diqqətə çatdırılıb. Cəmiyyətin formalaşmasında müəllimlərin rolunun danılmaz olduğu, xalqımız tərəfindən onlara hər zaman hörmət bəsləndiyi qeyd edilib.

Sonda təhsilin inkişafında fərqlənən bir qrup professor-müəllim heyəti təltif olunub.

## Ötən həftə mina və partlamamış hərbi sursatdan zərərsizləşdirilmiş ərazilərin sahəsi açıqlanıb

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən sentyabrın 30-dan oktyabrın 6-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Şuşa, Laçın, Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 159 mina, tankəleyhinə 73 mina, 415 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Beləliklə, 2945,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Azərbaycan və Özbəkistan arasında kompüter dəstəkli birgə komanda-qərargah təlimi keçirildi

*"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında imzalanan 2024-cü il üçün ikitərəfli əməkdaşlıq Planı"na əsasən, iki ölkə arasında "Məharət-2024" kompüter dəstəkli komanda-qərargah təlimi keçirildi. Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində sentyabrın 30-dan etibarən keçirilən təlimə hər iki ölkədən ümumilikdə 100-dən çox hərbi qulluqçu cəlb olundu.*



Təlimin açılış mərasimində hər iki ölkənin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan və Özbəkistan respublikalarının Dövlət himnləri səsləndirildi.

İştirakçıları və qonaqları salamlayan general-mayor Vüqar Əliverdiyev təlimin məqsədi haqqında danışaraq bildirdi ki, "Məharət-2024" kompüter dəstəkli birgə komanda-qərargah təlimi Azərbaycan və Özbəkistan ordularının əməliyyat bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi, əməliyyat bölmə komandirlərinin hərbi qərar qəbuletmə, təşəbbüs göstərmə və idarəetmə bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyaraq, qarşımızda duran əsas vəzifələrə hazırlığımızı artırır.

Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində keçirilən təlimdə piyada, artilleriya və Hərbi Hava Qüvvələrinin iştirakı ilə çoxfaktorlu hərbi əməliyyatları simulyasiya edən mürəkkəb ssenari nümayiş etdirildi. Bu ssenaridə Azərbaycan və Özbəkistan ordularının şəxsi heyəti heyəti iştirak edərək, təhlükələr qarşısında birgə təlimin strateji əhəmiyyətini nümayiş etdirdi.

Təlimin hazırlıq mərhələsində hər iki ölkənin qərargah zabitləri əməliyyat planları, birgə əməliyyatların aparılmasının xüsusiyyətləri ilə ətraflı tanış oldu, JCATS-dən istifadəyə dair göstərişlər aldılar. İştirakçılara məqsədlər, rollar və resursların müzakirəsi üçün brifinqlər də keçirildi.

Təlimin hərbi qərar qəbuletmə prosesi başa çatdıqdan sonra 3 əsas mərhələnin icrasına başlanıldı. Birinci mərhələdə hərbi qulluqçular JCATS (Birgə Münaqişə və Taktik Simulyasiya) proqramından istifadə etməklə əməliyyat təyinatlı rayonlarına yerdəyişmə və başlanğıc vəziyyətinin tutulması tapşırıqlarını icra etdilər. İkinci mərhələdə yerinə yetirilən tapşırıqlar şərti düşmənin təxribatlarının qarşısının alınması və onun məğlub edilməsinə yönəldildi. Üçüncü yekun mərhələdə əməliyyat rayonlarının düşməndən təmizlənməsi, ərazinin nəzarətə götürülərək təhlükəsizliyin təmin edilməsi prosesi uğurla başa çatdı.



Qeyd olundu ki, istifadə olunan JCATS (Joint Conflict and Tactical Simulation) proqramı müxtəlif ssenarilərin yaradılmasına, o cümlədən müdafiə və hücum əməliyyatları, şəhər döyüşləri və digər hərbi qarşıdurmaların simulyasiyasına imkan verir.

Döyüş əməliyyatlarının simulyasiyası virtual mühitdə döyüş şəraitinin yaradılmasından ibarət olub. Komandirlər əmrləri ötürmək, mövqeləri izləmək və düşmənin hərəkətlərini təhlil etmək üçün kompüter sistemlərindən istifadə edərək bölmələrini idarə etdilər. Bu prosesdə kritik bacarıqlar inkişaf etdirildi - məsələn, sürətli qərar qəbul etmək, bölmələr arasında qarşılıqlı fəaliyyət və döyüş mühitində effektivliyin artırılması.

Simulyasiya başa çatdıqdan sonra təlimin hər bir mərhələsi diqqətlə təhlil edildi. Bildirildi ki, JCATS-dən istifadə təkcə real vaxt rejimində prosesi izləməyə deyil, həm də sonrakı təfərrüatlı təhlil üçün məlumatları qeyd etməyə imkan verdi.

Mayor Qəzənfər İsmayılov hərbi təlimlərin simulyasiyası barədə daha ətraflı məlumat verərək, qeyd etdi ki, Hərb Oyunları Mərkəzində müxtəlif simulyasiya proqramları tətbiq olunur. "Bu proqramlar istənilən hava, dəniz, quru texnikalarının, piyada bölmələrinin, hərəkətlərinin və qarşılıqlı təsirini real vaxtda simulyasiya edən, istənilən iqlim və coğrafi şəraitin modelləşdirilməsi imkanı olan, ümumilikdə reallığa tam yaxın, dünya ordularının da istifadə etdiyi yüksək səviyyəli simulyasiya proqramlarıdır. Əsasən taktiki, əməliyyat və strateji səviyyədə hərbi əməliyyatların simulyasiya olunması üçün istifadə olunur. Bu proqramların müxtəlif bölmələrin və fərqli qoşun növlərinin eyni vaxtda döyüş əməliyyatlarında iştirakını simulyasiya edərək onlar arasında qarşılıqlı əlaqə yaratma, dost və düşmən bölmələrini avtomatik ayırdetmə imkanları var. İstənilən ərazinin elektron xəritələrindən istifadə etməklə təhlükəsiz döyüş şəraiti mühiti yaradaraq itkilərsiz təcrübə qazanmaq imkanı yaradır. Bu isə bölmələrin döyüş hazırlığını təkmilləşdirməklə yanaşı, döyüşdə baş verə biləcək gözlənilməz vəziyyətləri realistik şəkildə canlandıraraq əməliyyat qərarlarını simulyasiya edərək, komandirlərin taktiki düşüncə bacarıqlarını da artırır. Burada düşmən qüvvələrinin müxtəlif taktikalarının simulyasiya olunmasına, bu taktikaların qarşısını almaq üçün optimal qərarların sınaqdan keçirilməsinə və döyüş əməliyyatlarının dinamikasının canlı izlənməsinə şərait yaranır. Bu proqramlar vasitəsilə əməliyyatlar sonrası analiz aparılaraq, döyüşün gedişində baş vermiş səhvlər öyrənilir və gələcəkdə daha yaxşı hazırlıq üçün tədbirlər görülür. Bu xüsusiyyətlər sayəsində simulyasiya proqramları müasir döyüş əməliyyatlarının planlaşdırılmasında əvəzolunmaz bir vasitə hesab olunur. Ordumuzun 44 günlük Vətən müharibəsində və son illərdə keçirdiyi uğurlu əməliyyatlarda düşmən üzərində inamlı zəfər qazanmasında simulyasiya təlimlərində qazanılmış təcrübələrin də danılmaz rolu var.



Mayor Orxan Həsənov isə müasir zamanədə təlimlərin kompüter dəstəyi ilə keçməsinin böyük əhəmiyyət daşıdığını bildirdi. "Kompüter dəstəkli təlim müasir hərbi hazırlıqda mühüm rol oynayır. Ənənəvi metodlarla yanaşı, simulyasiya sistemləri vasitəsilə real döyüş şəraitinə daha yaxın təlim mühiti yaratmaq mümkündür. Simulyasiya sistemlərindən istifadə etməklə, şəxsi heyət müxtəlif ssenarilər və risklər üzrə praktiki təcrübə qazanır, bununla da real döyüş şəraitində qarşılaşa biləcəkləri vəziyyətə hazır ola bilirlər. Bu metod həm də döyüş meydanında komandirlərin hərbi qərar qəbuletmə qabiliyyətini inkişaf etdirməklə yanaşı, bölmələri fasiləsiz, inamla, qətiyyətlə idarəetmə üzrə bilik və bacarıqlarını təkmilləşdirir. Bununla yanaşı, kompüter dəstəkli təlimlərin keçirilməsi şəxsi heyətin fəaliyyətini qiymətləndirmək və analiz etmək üçün geniş imkan yaradır. Təlimdən sonra təhlil zamanı əldə olunmuş məlumatların analizi aparılır, növbəti təlimlər və gələcək əməliyyatların planlaşdırılması zamanı qazanılmış təcrübələrdən istifadə olunur. Nəticədə, kompüter dəstəkli təlimlərin keçirilməsi vaxt və resurs israfının qarşısını almaqla yanaşı, ordumuzun bölmələrinin döyüş hazırlığının yüksək səviyyəyə qaldırılmasında da mühüm rol oynayır. 44 günlük Vətən müharibəsindən əvvəl planlaşdırılan hərbi əməliyyatların hazırlığı zamanı korpus və briqadalar praktiki olaraq mərkəzimizdə tətbiq olunan simulyasiya sistemlərindən istifadə edərək, real döyüş tapşırıqlarının icrasına uyğun təlimlər keçirmiş, səhvlər təhlil olunmuş, bilik və bacarıqlarını təkmilləşdirmişlər.



Təlim uğurla başa çatdıqdan sonra Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində təlimin bağlanış mərasimi keçirildi.

Çıxış edənlər ümumilikdə təlimin gedişatını, müasir kompüter texnologiyalarının istifadəsini, təlim iştirakçılarının qərar qəbuletmə bacarığını və hərbi qulluqçuların peşəkarlığını müsbət qiymətləndirdilər. "Məharət-2024" təliminin əsas məqsədi müttəfiq qüvvələrin koordinasiyasını və effektivliyini artırmaq, strateji tərəfdaşlığımızı inkişaf etdirmək olduğunu bildirərək vurğuladılar ki, qarşıya qoyulan bütün tapşırıqlar uğurla yerinə yetirildi, təlim məqsədlərinə nail olundu.

Onu da qeyd etdilər ki, ssenariyə əsasən, sərhədi pozan şərti qanunsuz silahlı birləşmənin hücumlarının qarşısının alınması, onların zərərsizləşdirilməsi və məhv edilməsi, eləcə də ərazinin nəzarətə alınması və təhlükəsizliyin təmin olunması hərbi qulluqçular tərəfindən məharətlə yerinə yetirildi.

Təlim iştirakçılarına sertifikat, fərqlənən hərbi qulluqçulara mükafatlar təqdim edildi.

Mərasim Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkil etdiyi konsert proqramı ilə başa çatdı.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# Müəllimlik ucalığa aparan yoldu





Kövrəklik gətirən payız həm də könül xoşluğu ilə yaşanılır. Son illərdə payızın gəlişi duyğuları coşdurur, zaman anlamında tarixin dünənlərinin qürurunu bayraqlaşdırır. 2020-ci ilin payızı dünyanın illərlə davam edən nizamsızlığını dağıtdı, nizama saldı, 2022-ci ilin payızı dirçəlmək istəyən, boy göstərən işğalın tərpənişini çiliklədi, 2023-cü ilin payızı işğalın son nəfəsi oldu, Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildi. Bunlar Azərbaycan gerçəkliklərinin Vətən adından dünyaya qətiyyətli xəbərdarlığı kimi tarixləşdi. Varam, var olacam!..

Əvvəllər də, Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra da payız cəmiyyətə bir bayram ovqatı da yaşadıb: bir günə ad olsa da, günlərin, ayların mənəvi səyyarəsi kimi süslənib həmin günün ovqatı. Bu ovqat şagirdlərin baxışlarında minnətdarlıq işığına dönüb, müəllimlərin düşüncələrində vətəndaşlıq borcu məktəblilərin baxışlarında çiçəkləyib. Hamımızın ömründə müəllim ömrünün ziyası var. O ziya yaşadılır, xoş xatirələrə dönür, tarixləşir. Bu günün ovqatının mahiyyəti sabahlarla bağlıdı. Hər il oktyabrın 5-i Beynəlxalq Müəllimlər Günüdür.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev demişdi: "Mən dünyada müəllimdən yüksək ad tanımıram". Bu kəlam da,

Hamıya pay verib
ömründən bir az,
Məndədir, səndədir
müəllim ömrü, -

misraları da müəllim ömrünə ehtiramdı...

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə keçirilən tədbirə bu düşüncələrlə çatmışam. 5 Oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü və icraçılığı ilə xüsusi təyinatlı bu təhsil müəssisəsində həyat yoldaşı şəhid olmuş müəllimlərin bir qrupunu təbriketmə tədbiridir. Kövrəklik də duyulandı, qürur da. Kövrəklikdə qürur var, qürurda kövrəklik yoxdu, qətiyyət var, inam var, sevgi var. Bu qətiyyət də, inam da, sevgi də ordumuza göradi - bir vaxtlar şəhidlər də onun sırasında olublar.

Qonaqlardan biri sezilməsi çətin olan qəhərlə "Hər il məni ilk olaraq o təbrik edərdi" deyir. O - şəhid olmuş həyat yoldaşı. İnanır ki, indi ruhu təbrik edir, həm də "Vətən üçün yaşadıq, Vətən üçün şəhid olduq, Vətən naminə mənsizliyə alış..." - deyir.

Xatırlayırıq ki, dörd il əvvəl Cəbrayıl şəhəri, rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri işğaldan azad edilib. Bu xatırlamanın qürurunun işığında qonaqlar "Heydər Əliyev Muzeyi" ilə tanış olurlar. Kapitan Heydər Fərəcov eksponatları təqdim etdikcə zaman-zaman yaşanılmış tarixi bir gerçəklik yenidən yaşanılır: Ulu Öndər Heydər Əliyev ömrü əbədiyyət ömrüdü...

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Kərim Rzayev tədbirin mahiyyətindən, şəhid ailələrinə dövlət qayğısından, cəmiyyətin şəhidliyə, şəhidlərə ehtiramından söz açır, belə tədbirlərin keçirilməsini təkcə təmsil etdiyi təşkilatın deyil, ümumən cəmiyyətin mənəvi borcu olduğunu bildirdi. "Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların hər biri hər birimizin əzizidir. Əzizlərimizin həyat yoldaşlarını peşə bayramları münasibətilə təbrikə gəlmişik. Müxtəlif təhsil müəssisələrində işləyən bu müəllimlər şagirdlərinə təkcə dərsliklərdəki mövzuları tədris etməklə kifayətlənmir, onlara şəhidlərin həyat yolundan, döyüş yolundan da danışırlar. Bu, şagirdlərin vətənpərvərlik ruhunun yüksəlişində əhəmiyyətli olur. Şəhidlik haqqında, şəhidlər haqqında qəzetlərdən, kitablardan oxuyan şagirdlər şəhidlik haqqında şəhidin ömrünün bir hissəsinin ömürdaşı olmuş insandan eşidir...".

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədr müavini Aygün Məmmədova təmsil etdiyi təşkilatın missiyasının həm də bu mіqyaslı, bu mahiyyətli tədbirlərin təşkili olduğunu xatırlatdı, belə tədbirlərin vətəndaşlıq borcu minnət yerinə yetirildiyini bildirdi. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə müəllimlərin də iştirak etdiyini, yaralandığını xatırlatdı, qeyd etdi ki, müharibədə neçə-neçə müəllim şəhid oldu. "Birinci Qarabağ müharibəsinin iştirakçısı gəncəli gənc müəllim Nizami Aydın həm də şair idi. O, cəmiyyətdə, xalqımızın tarixində şəhid kimi qaldı, ədəbiyyatımızda şair kimi, şagirdlərinin xatirələrində müəllim kimi. Neçə-neçə müəllimimizin ömrü belə anılacaq. Bugünkü tədbirə dəvət olunan müəllimlər bir vaxtlar Vətən fədaisi ilə nəfəs-nəfəsə illər yaşayıb, Vətəndən də danışıblar, Vətəni qorumağın fəzilətindən də danışıblar. Şəhidlikdən danışmayıblar, torpaqlarımızın işğaldan azad edilməsindən danışıblar. Onların o vaxtlar danışmadıqları şəhidlikdən indi biz danışırıq. Ehtiramla, vətəndaşlıq qəhəriylə, vətəndaşlıq qüruru ilə...".

C.Naxçıvanski adına Hərbi Liseyin rəisi Vətən Müharibəsi Qəhrəmanı polkovnik Anar Mirzəyev Vətən müharibəsinin döyüşlərindən, Azərbaycan əsgərinin döyüş ruhundan, qələbə əzmindən söz açaraq qeyd etdi ki, döyüşənlər qəhrəman olmaq üçün döyüşmürdülər, qəhrəmanlıqla döyüşürdülər. "Siz şəhid olmuş həyat yoldaşınızın ömür yolunu xatirələrlə xatirələrinizdə, ruhunuzda davam etdirirsiniz. Ona görə onların ömürləri ölümsüz ömürdü. Sizin dərsarası söhbətlərinizdən, bəzilərinin heysiyyətli suallarından tanıdığı həyat yoldaşınızı şagirdləriniz də ehtiramla yaşadırlar".

Qonaqları liseyin şəxsi heyəti adından, öz adından təbrik edən polkovnik Anar Mirzəyev onların şagirdlərinin də Vətəni ululuq mərtəbəsində yaşadacaqlarına əminliyini bildirdi...

Sumqayıt şəhərində müəllim işləyən Qəmər Rəhimli həyat yoldaşı Murad Rəhimlinin döyüş yolundan danışdı. Onun dedikləri bir şəhidin döyüş yolu olsa da, Azərbaycanın ərazilərini işğaldan azad etmək üçün döyüşlərdə şəhid olanların hamısının qətiyyətinin, Vətənə sevgisinin mahiyyətidi: Qətiyyətlə döyüşüblər, mərdliklə döyüşüblər, Qələbə üçün döyüşüblər, Azərbaycanın ərazi bütövlüyünün tam bərpası üçün döyüşüblər. "Oktyabrın 5-də zəng eləmişdi, səsində zərrəcə həyəcan hiss etməmişdim. Yaxın vaxtlarda qələbə ilə dönəcəklərini bildirmişdi Murad. Tərtər, Ağdərə istiqamətində döyüşürdü. Oktyabrın 8-də Suqovuşanda mərmi qəlpəsindən şəhid oldu. Vətən naminə şəhid oldu. Təsəllimiz ordumuzun qazandığı tarixi Zəfərdi, dövlətimizin qayğısıdı, bir də sizin şəhidliyə, şəhidlərə belə ehtiramınızdı...", - şəhid Murad Rəhimlinin həyat yoldaşı Qəmər Rəhimli belə dedi...

Söhbətləşmək istəyən, ancaq sükutdan üzülə bilməyən baxışları az görmüşdüm. Həmişə qəhərli gördüyüm belə baxışları indi doğma bir ovqatın əhatəsində qürurla bir ucalıqda görürəm. Bu qürur Azərbaycanın ərazi bütövlüyünün tam bərpasının qürurudu. Bu ovqat tarixin nizamını özünə qaytaran döyüşlərdə şəhid olanların həyat yoldaşlarına ehtiramın ovqatıdı.

İbtidai sinif müəllimi olan Samirə Rəşidova şagirdlərinə həm hərfləri öyrədir, rəqəmləri öyrədir, həm də Vətənə sevginin ilkini, başlanğıcını. Vətən müharibəsindən danışa-danışa öyrədir, döyüşlərdən danışa-danışa öyrədir, uşaq təfəkkürünü nəzərə alıb öyrədir. Bilir ki, bu öyrənilənlər gələcəkdə genişlənəcək, şagirdlərin dünyagörüşü bu bilgilər əsasında formalaşacaq. Akademik Xudu Məmmədov deyirdi: "Uşaqlara Vətəni sevməyi öyrətmək lazım deyil. Siz onlara Vətəni tanıdın, özləri sevəcəklər". Samirə Rəşidova belə müəllimdir. Vətəni şagirdlərinə sevgilərlə tanıdır. Həyat yoldaşı İlham Rəşidovun şəhidliyinə qədər də belə olub, indi də belədir. Baş gizir İlham Rəşidov müharibənin ilk günü Murovdağ istiqamətində döyüşlərdə idi. Yaralandığını kimsə duymamışdı. Döyüş yoldaşlarından biri ağır yaralananda onu döyüşdən çıxartmaq istəyib. Çıxardıb da, təxliyəsini təşkil edib də. Özü şəhid olub. Döyüşlərdə Azərbaycan hərbçiləri üçün bir döyüş andı vardı: Qələbə! Döyüşçülərimiz Qələbə naminə şəhidlikdən də keçirdilər...

Samirə Rəşidova da digər müəllimlərimiz kimi Vətən müharibəsinin döyüşlərini böyük vətənpərvərlik dərsliyi bilir. O da şagirdlərinə döyüşlərdən danışır, soruşulanda İlhamın da döyüşünü xatırladır. "Bugünkü tədbirdə bizi təkcə iştirakçılar deyil, tanıdığımız şəhidlərin, əzizimiz şəhidlərin ruhu da təbrik edir. Bu tədbir təkcə bizi deyil, şəhidlərimizin ruhunu da təbrik etmək üçündü. Sizin təbrikə görə də sağ olun, buna görə də sağ olun...". Hamı duyğulanır. Azərbaycanlı müəllimin düşüncələrinə görə qürurlanırıq, Azərbaycan dilinin inceliyinə görə qürurlanırıq, Azərbaycan Ordusunun şəhidlərinə ehtirama görə qürurlanırıq. "Mən sinif otaqlarına şəhidlərimizin ruhən dediyi bir tövsiyə ilə gedirəm: "Tarixi Zəfərdən sonra şagirdlərinizin Vətən sevgisinin əsgəri siz olmalısınız...". Tədbirdə iştirak edən müəllimdən bu kəlmələri eşitmək necə də xoşdu!

Heydər Əliyev adına Hərbi İnstitutun texniki fənlər kafedrasının baş müəllimi Azadə Məmmədova bir vaxtlar hərbçi müəllim olmuş həyat yoldaşının Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edərdi, illərdi həyat yoldaşının ruhu onu təbrik edir. "Mən Əbdülhüseynin xidmət etdiyi təhsil ocağında işləyirəm. İllərdi yolunu mülki müəllim kimi davam etdirməyi özümə təsəlli bilirəm. Auditoriyalara girəndə elə bilirəm məni Əbdülhüseynin nəfəsi uğurlayır. Biz həyat yoldaşlarımızla bağlı xatirələri yaşada-yaşada onların ömrünün davamını yaşadırıq. Bu duyğuları bizə bu gün siz daha duyğusallıqla yaşatdınız. Şəhidlərimizin ruhunun xəyalən bizə arzuladıqlarını siz arzuladınız. Tədbir iştirakçıları adından bütün şəhidlərimizə deyirəm ki, siz tarixdə də yaşayırsınız, xatirələrdə də, böyük ehtiramla keçirilən tədbirlərdə də...", - Azadə müəllimin də, digər çıxış edən müəllimlərin də dedikləri müəllimliyə, müəllimlərə, təhsil ocaqlarına, bu sıradan xüsusi təyinatlı təhsil müəssisələrinə ehtiram kimi dinlənilir.

Mayor Elsevər Paşayev Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olmuşdu, bu təhsil ocağının məzunu olub, sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib (indiki Heydər Əliyev adına Hərbi İnstitut). Vətən müharibəsində iştirak edib. Qəhrəmanlıqla döyüşüb. "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub. Şəhid mayorun həyat yoldaşı Xəyalə Paşayeva tarix müəllimidir. Dedi ki, mən şagirdlərimə tarix dərsini Vətən müharibəsində qazanılan tarixi Zəfərin qürur ovqatı ilə öyrədirəm. "Biz müəllimlər də Vətən üçün belə əsgərik: Vətənin sabahları üçün vətənpərvərlər formalaşdırırıq. Şəhidlərimizin işğaldan azad etdiyi torpaqları onlar qoruyacaqlar..."

Polkovnik Anar Mirzəyev də, Kərim Rzayev də çıxış edənlərə minnətdarlıqlarını bildirdilər...

Tədbirdə dəvət edilmiş müəllimlərə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin Fəxri fərmanları, çiçək dəstələri, hədiyyələr təqdim olundu.

Tədbir şirniyyat süfrəsi ətrafında davam etdirildi...

Zabitlər də, qonaqlar da Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi sədrinin müavini Aygün Məmmədovanın səsləndirdiyi

Deməyin getdiyi cığırlar - kəsə,
Otaqda başlanıb, otaqda bitər.
Otuz il otaqda var-gəl edibsə,
Bəlkə də yol gedib Magellan
qədər, -

misraları xüsusi təyinatlı təhsil müəssisələrində işləyən müəllimlərə ehtiramın poetik ifadəsi bilirlər...

Bu gözəl payız günündə nə vaxtsa oxuduğum kəlamı xatırlayıram: Makedoniyalı İsgəndər müəllimi Aristotel haqqında deyib: "Valideynlərim məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı"...

Bu payız günündə bir daha əmin oluruq ki, müəllimlik ucalığa aparan yoldu...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Zəfər salnaməsi. Vətən müharibəsi, antiterror və digər əməliyyatlar nəticəsində Vətənimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası

**Suallar:**

**1. Qələbəyə aparan liderlik keyfiyyətləri.**

**2. Diplomatik mübarizənin şanlı Zəfər yürüşündə rolu.**

**3. Ordu quruculuğundakı nailiyyətlərin məntiqi nəticəsi.**

**4. Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin tarixi-siyasi əhəmiyyəti.**

### Qələbəyə aparan liderlik keyfiyyətləri

Xalqların dünyada nüfuzunu artıran yalnız onların maddi-mədəni sərvətləri deyil, həm də mütərəqqi ideyaları ilə tarixi proseslərə mühüm təsir göstərən şəxsiyyətləridir. Onların seçdiyi yol milli inkişaf strategiyasının əsasında dayanır və təmsil etdikləri ölkələrin dünya birliyində özünə layiqli yer tutmasını təmin edir. Belə şəxsiyyətlərdən biri, müstəqil Azərbaycan dövlətinin banisi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevdir. Onun məqsədyönlü və qətiyyətli fəaliyyəti nəticəsində 21 il ərzində Azərbaycan dövlətinin bütün sahələrində əldə etdiyi uğurlar "...Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm...", - deyən Ulu Öndər Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini sübut edir.

Hər bir xalqın genetik yaddaşını möhkəmləndirmək, mənəvi irsini və əxlaqi dəyərlərini qoruyub saxlayaraq gələcək nəsillərə ötürmək kimi çətin missiyanın yerinə yetirilməsi uzaqgörən liderlərin fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Onlar həmişə ali məqsədlər uğrunda mübarizənin önündə gedərək, göstərdikləri tarixi fəaliyyətlə rəhbərlik etdikləri dövlətlərin mütərəqqi yolla inkişafına nail olurlar. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqımızın milli-mənəvi bütövlüyünün təmin olunmasında özünəməxsus yer tutan milli şüurun inkişafını daim diqqət mərkəzində saxlayır ki, bu da təsadüfi deyildir. Çünki milli şüur hər bir insanın mənsub olduğu xalqa bağlılıq hisslərini möhkəmləndirməklə milli özünüdərketmədə ciddi rol oynayır.

Dövlət başçısı cənab İlham Əliyev bütün fəaliyyətini Azərbaycanın inkişafına və möhkəmlənməsinə həsr edən lider kimi xalqımızın böyük rəğbətini qazanıb. Onun dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir. Milli birliyin təmin olunması, müxtəlif ictimai-siyasi qüvvələr arasında etimad mühitinin yaradılması istiqamətində Müzəffər Ali Baş Komandanın atdığı addımlar ictimai fikirdə onun haqqında uzaqgörən və ədalətli lider obrazını daha da möhkəmləndirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səmərəli iş qabiliyyəti, fəallıq və təşəbbüskarlıq kimi keyfiyyətlərə malik olması, ortaya çıxan problemlərin obyektiv və subyektiv səbəblərini dərindən, hərtərəfli araşdırmasında, ölkənin inkişafını nəzərdə tutan proqramlar hazırlayaraq həyata keçirməsində mühüm əhəmiyyət daşıyır. Onun qəbul etdiyi qərarların, yerinə yetirdiyi vəzifələrin milli və qlobal əhəmiyyəti həm yerli, həm də beynəlxalq ictimai rəydə yüksək qiymətləndirilir.

### Diplomatik mübarizənin şanlı Zəfər yürüşündə rolu

Böyük Zəfərin əldə olunmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət və Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin həlli istiqamətində apardığı ardıcıl, qətiyyətli diplomatik mübarizə ilə sıx şəkildə bağlıdır. Ötən illər ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi və milli maraqlarının təmin olunması sahəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu ölkəmizə beynəlxalq aləmdə çoxlu dost dövlətlər və etibarlı tərəfdaşlar qazandırıb.

Azərbaycanın Cənubi Qafqazın aparıcı dövləti kimi dünya birliyində mövqeyi daha da möhkəmlənib. Digər ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yürütdüyü siyasətin əsas prinsiplərindən birini təşkil edir. Bu siyasətin nəticəsində ölkəmizlə dünya dövlətləri arasında qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq möhkəmlənir, Azərbaycan vətəndaşlarının firavan və təhlükəsiz şəraitdə yaşayışı təmin olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı xarici siyasət ölkəmizi dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun BMT, Avropa Birliyi, ATƏT, MDB, İƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarla əlaqələrini möhkəmləndirir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi xalqımızın tarixində mühüm hadisədir. Bununla yanaşı, nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın uğurlu diplomatiyasının göstəricisidir. Uğurlu xarici siyasət nəticəsində əldə olunmuş nailiyyətlər Azərbaycanın müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişafına mühüm təsir göstərir. Milli maraqlara əsaslanan xarici siyasətin aparılması beynəlxalq ictimaiyyətdə Azərbaycana böyük inam və etimad qazandırır.

Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin həllinə nail olmaq üçün ötən illər ərzində fəal və çevik xarici siyasət həyata keçirilib. Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumatlar çatdırılıb, Ermənistanın yalançı təbliğatı ildən-ilə fiaskoya uğrayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin beynəlxalq hüquqi normalar çərçivəsində nizamlanmasına çalışıb, Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi kimi beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirib, Ermənistanı işğalçılıq siyasətindən əl çəkməyə, dünya dövlətlərini isə problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırıb.

2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Müzəffər Komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi oldu.

### Ordu quruculuğundakı nailiyyətlərin məntiqi nəticəsi

2003-cü ildən etibarən ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, Azərbaycan Ordusunun hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Qarabağ münaqişəsinin aqibəti ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi. Qısa müddət ərzində görülmüş işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer aldı. Həmçinin Azərbaycanda güclü müdafiə sənayesi quruldu. Bu gün Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinin, zabit və əsgər heyətinin yüksək hərbi hazırlığa və vətənpərvərlik əhvali-ruhiyyəsinə malik olmasının nəticələri özünü həm Vətən müharibəsində, həm də Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Qarabağ iqtisadi zonasında keçirilən antiterror əməliyyatı da parlaq şəkildə göstərdi. Şanlı ordumuz Azərbaycan Respublikasının Ermənistanın işğalına məruz qalmış ərazilərini erməni qəsbkarlarından tam azad etdi. Sübut olundu ki, Azərbaycan müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrə malikdir.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində "Dəmir yumruq" əməliyyatı ilə Ermənistanı ordusunu darmadağın edərək onları kapitulyasiya aktına imza atmağa məcbur edən Cənubi Qafqazın ən qüdrətli Azərbaycan Ordusu 23 saata Qarabağ iqtisadi rayonunda antiterror əməliyyatı keçirməklə, separatçıları diz çökdürməklə yanaşı, Azərbaycan xalqının son 200 il ərzində qarşılaşdığı və təkcə azərbaycanlılara deyil, bütün bölgəyə təhlükə yaradan, miqyasından dəfələrlə böyük bir problemi həll etdi. Separatizmin qaynaqlandığı iddiaları, mif və əsatirləri sıradan çıxartmaqla Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya göstərdi.

### Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin tarixi-siyasi əhəmiyyəti

Son 21 ildə Azərbaycanda həyata keçirilən uğurlu daxili və xarici siyasət ölkəmizi yeni inkişaf mərhələsinə çıxardı. Dövlət başçısı cənab İlham Əliyev hələ 2003-cü ildə keçirilən prezident seçkilərindən sonra andiçmə mərasimi zamanı söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam... Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm və Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam..." fikrinə sadiqliyini öz əməlləri ilə sübuta yetirib. 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olunması üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və güclü dövlət konsepsiyasını reallaşdırmağa nail oldu.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq məqsədilə 2020-ci ilin 27 sentyabrında bütün cəbhə boyu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında əks-hücuma keçən Cənubi Qafqazın ən qüdrətli ordusu şanlı ordumuz 1990-cı illərin əvvəlində baş verən Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğala məruz qalmış 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən dərhal sonra noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Hərbi müstəvidə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Azərbaycana təhvil verildi. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli Bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı.

2023-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə aniterror əməliyyatı başlamışdır. Cəmi 23 saat davam edən və sentyabrın 20-də başa çatan əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir.

Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycanın Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Biz torpağımız uğrunda sonuncu azərbaycanlı qalana qədər olsa da, döyüşməli idik. Çünki bu işğal tarix boyu üzləşdiyimiz çoxsaylı haqsızlıqların ən dəhşətlilərindən biri idi. Həm Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev, həm də onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev dəfələrlə demişdirlər: "...biz bu problemin həllini gələcək nəsillərin - günahsız övladlarımızın, nəvə-nəticələrimizin öhdəsinə buraxa bilmərik". Bəli, bu problem məhz Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısının icrası nəticəsində, "Heydər Əliyev İli"ndə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkədə siyasi hakimiyyətə gəlməsinin 20 illiyi ərəfəsində, Azərbaycan xalqının öz iqtidarı ətrafında monolit birlik yaratmasından, ordumuzun inkişafının "Dəmir Yumruğ"a çevrilməsindən sonra həll edildi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq üçün müstəqil dövlət yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin bütün mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməyib. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman hərbi qulluqçularımızın, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Krossvord, skanvord, çaynvord, kriptoqram




# İdman

## Dünya çempionatı: Azərbaycan cüdoçuları fərdi yarışları 3 medalla başa vurublar



Azərbaycan cüdoçusu Kənan Nəsibov Tacikistanın paytaxtı Düşənbə şəhərində gənclər arasında keçirilən dünya çempionatında final görüşünə çıxıb.

100 kiloqramdan yuxarı çəki dərəcəsində yer alan idmançı Beynəlxalq Cüdo Federasiyasının (IJF) bayrağı altında çıxış edən Denis Batçayevlə qarşılaşıb.

Rəqibinə ipponla uduzan cüdoçumuz gümüş medalla kifayətlənib.

Bununla da Azərbaycan cüdoçuları mundialın fərdi yarışlarını 3 medalla başa vurublar. Daha əvvəl Süleyman Şükürov (81 kiloqram) və Əjdər Bağırov (100 kiloqram) dünya üçüncüsü olublar.

## Azərbaycanın fiqurlu konkisürəni beynəlxalq turnirdə gümüş medal qazanıb



Azərbaycanı beynəlxalq fiqurlu konkisürmə üzrə yarışlarda təmsil edən Vladimir Litvintsev Qazaxıstanın Astana şəhərində keçirilən "Denis Ten Memorial Challenge" turnirində qüvvəsini sınayıb.

O, qısa və sərbəst proqram üzrə çıxış edib.

V.Litvintsev 246.00 xal toplayaraq, yekun nəticədə 12 idmançı arasında 2-ci yeri tutub və gümüş medala sahib çıxıb.

## Seçmə mərhələ: Çimərlik futbolu üzrə Azərbaycan millisindən növbəti qələbə



Çimərlik futbolu üzrə Azərbaycan millisi İspaniyanın Kadis şəhərində keçirilən dünya çempionatının seçmə mərhələsində növbəti matçına çıxıb.

A qrupunda mübarizə aparan yığma Gürcüstanla üz-üzə gəlib. Qarşılaşma Azərbaycan seçməsinin 7:2 hesablı qələbəsi ilə başa çatıb.

Sahib Məmmədovun rəhbərlik etdiyi kollektiv ilk turda İngiltərəni 4:0 hesabı ilə məğlub edib.

## Azərbaycan boksçuları Qazaxıstanda iki qızıl medal qazanıblar



Azərbaycan boksçuları Qazaxıstanın Aktau şəhərində keçirilən beynəlxalq turnirdə 4 medal qazanıblar.

Yığmanın heyətində Sərxan Əliyevlə (71 kiloqram) Məhəmməd Abdullayev (+92 kiloqram) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər. Yalnız finalda uduzan Nəbi İsgəndərov (71 kiloqram) ikinci yeri tutub. Tayfur Əliyev (60 kiloqram) isə bürünc mükafata yiyələnib.

Qeyd edək ki, Aktauda Azərbaycanı hakimlərdən İlqar Qasımzadə təmsil edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

## Cənubi Koreya ABŞ qoşunlarının saxlanmasına çəkdiyi xərcləri 8,3 faiz artıracaq



Cənubi Koreya ölkə ərazisindəki ABŞ qoşunlarının saxlanmasına çəkdiyi xərci 2026-cı ildən 8,3 faiz artıracaq.

Cənubi Koreyanın Xarici İşlər Nazirliyi ABŞ hərbi kontingentinin saxlanma xərclərinin bölüşdürülməsinə dair tərəflər arasında son 5 ayda 8 mərhələdən ibarət müzakirələrin yekunu olaraq belə qərar qəbul edildiyini açıqlayıb. 2026-2030-cu illəri əhatə edən razılaşmaya əsasən Cənubi Koreya hər il ABŞ qoşunlarının saxlanılmasına 1,52 trilyon von (1,14 milyard ABŞ dolları) vəsait ayıracaq. Hazırda bu rəqəm 1,4 trilyon vondur.

Qeyd edək ki, hazırda ABŞ-ın Cənubi Koreyada 28 500 nəfərlik hərbi kontingenti var.

## Husilər ötən ilin noyabrından bəri 190-dan çox gəmiyə hücum ediblər



Yəmənin "Ənsar Allah" üsyançı hərəkatından olan husilər 2023-cü ilin noyabr ayından bəri Böyük Britaniya, İsrail və ABŞ ilə əlaqəli olduğuna inandıqları ən azı 193 gəmiyə hücum ediblər.

Bu barədə "Al Masirah" telekanalında çıxışı zamanı hərəkatın lideri Əbdülməlik əl-Husi deyib.

Onun sözlərinə görə, göstərilən müddət ərzində üsyançılar İsrailə və müxtəlif gəmilərə ən azı min raket atıblar. Onlar, həmçinin ABŞ-ın ən azı 11 "MQ-9 Reaper" kəşfiyyat və hücum pilotsuz təyyarəsini vurublar.

## Niderland Ukraynaya F-16 qırıcılarının ilk partiyasını verdiyini açıqlayıb



Ukrayna Niderlanddan ilk F-16 qırıcılarını alıb. Tərəfdaş ölkə, həmçinin dron təşəbbüsü elan edib.

Bu barədə Ukraynada səfərdə olan Niderlandın müdafiə naziri Ruben Brekelmans öz "X" sosial şəbəkədəki paylaşımında məlumat yayıb.

"İlk dəfə rəsmi olaraq elan edə bilərəm ki, ilk Niderland F-16-ları Ukraynaya gətirilib. Buna təcili ehtiyac var. Xarkovda Rusiyanın hava hücumlarının vurduğu ziyanı gördüm və tez-tez hava hücumu siqnallarını eşitdim. Qalan 24 təyyarə isə qarşıdakı aylarda Ukraynaya göndəriləcək", - deyə nazir əlavə edib.

Brekelmans bildirib ki, Niderland Ukraynanı dəstəkləməkdə ön sıralarda qalır və buna görə də o, pilotsuz uçuş aparatları ilə bağlı fəaliyyət planını elan edir.

"400 milyon avro məbləğində qabaqcıl pilotsuz təyyarələr təqdim edəcəyik. Kəşfiyyat, müdafiə və hücum üçün. Onların demək olar ki, yarısı Niderlandda hazırlanacaq", - deyə nazir bildirib.

Xatırladaq ki, Ruben Brekelmans Ukraynaya gözlənilməz səfər çərçivəsində Ukraynanın müdafiə naziri Rustem Umerovla görüşüb. Xüsusilə, tərəflər aviasiya koalisiyasında əməkdaşlığı gücləndirmək barədə razılığa gəliblər. Söhbət ekipaj hazırlığından, eləcə də silah və təyyarələrin ehtiyat hissələrinin tədarükündən gedir.

**AZƏRTAC-ın materialları əsasında**

Sadıqov Anar Rəfail oğluna verilmiş MV № 050265 nömrəli müharibə veteranı vəsiqəsi və ZE № 0030116 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.


**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elvin VƏTƏNDUST

Lisenziya № 361
Sifariş № 604
Nüsxə 4650